## Vidadi Babanlı – 90



■ Buludxan Xəlilov

# Ədəbiyyatımızın ixtiyarı



Vidadi Babanlı nəsrimizin, şeirimizin, bədii tərcümə ədəbiyyatımızın dəyərli nümayəndələrindəndir. Vidadi Babanlıdan öyrənilməli çox məsələlər vardır. Ədəbi tənqidimiz də, şair və yazıçılarımız da, bütövlükdə ədəbi mühitimiz də onun təcrübəsindən öyrənməlidir. Vidadi Babanlı hal-hazırda elə bir mərhələdədir ki, onun yaradıcılıq təcrübəsindən ədəbi mühit öyrənməlidir. Vidadi Babanlı "Vicdan susanda" romanında qaldırdığı məsələlərin hər biri bütün zamanların aktual mövzularıdır. O, təkcə bu əsərinə görə bütün zamanlarla ayaqlaşacaq, müasir olacaqdır.

"Vicdan susanda" romanındakı qaldırılan məsələlər, əslində, bütün dünyada olan problemlər kimi bütövlükdə bəşəriyyəti narahat edir və etməlidir. Məsələn, elmi-texniki tərəqqinin həyatımıza, məişətimizə gətirdiyi yaxşı və pis cəhətlər, eləcə də onun insan psixologiyasında yaratdığı dəyişikliklər olduqca düşündürücüdür. Bu gün bütün dünyanın maraq dairəsində olan problemlər var: havanın çirkləndirilməsi, ətraf mühitin və təbiətin ekoloji problemləri, insan mənəviyyatındakı aşınmalar və s. Məhz romanda bu məsələlərin özünə yer alması təsdiq edir ki, Vidadi Babanlı bütün zamanların marağında olan ədəbiyyat adamıdır. Əslində o, bir yazıçı kimi öz mövqeyində o qədər qətidir ki, təsvir etdiyi bədii lövhələrin reallığı qarşısında ram olmamaq mümkün deyildir. O, məqsəd, amal, məslək yolunda mövqeləri toqquşdurmağı, kimin kim olduğunu üzə çıxarmağı bacaran ədibdir. Onun bu qabiliyyəti sayəsində "Vicdan susanda" romanında respublikanın qabaqcıl alimlərinin gərgin elmi fəaliyyəti, mübarizə və mübahisələri, hətta bu mübarizənin, mübahisənin düşmənçilik səviyyəsinə çatması inandırıcı şəkildə verilir.

Oxucu "Vicdan susanda" romanından öyrənir ki, insana daha doğrusu, insanlara məxsus keyfiyyətlər hansılardır?! Bu keyfiyyətlər sırasında yüksək vətəndaşlıq, nəciblik, xeyirxahlıq, cılızlıq, paxıllıq, bədxahlıq və s. keyfiyyətlər oxucunu narahat etməyə bilmir. Deməli, Vidadi Babanlı insanların daxili aləmini, mənəvi keyfiyyətlərini, lap elə çirkin xüsusiyyətlərini dərində bilən və onu inandırıcı şəkildə təqdim etməyi bacaran nasirdir. Onun dərin müşahidə qabiliyyəti və bunları ümumiləşdirmək bacarığı, nəticədə ayrı-ayrı obrazların, xarakterlərin simasında hər şeyi öz ünvanına yönəltmək gücü qeyri-adi bir istedaddır. Bunu bacaran yazıçı öz oxucusunu qazana bilir, yazdıqlarının auditoriyasını tapır. Bu mənada, Vidadi Babanlı o tipli nasirdir ki, onun oxucu auditoriyası dolu və zəngindir. Birisi islah olunmaq üçün o auditoriyaya gəlir, başqa birisi ibrət dərsi almaq üçün, digərləri yaşamağın yolunu tapmaq üçün... Bir sözlə, hər kəs öz payını götürür, daha doğrusu, Vidadi Babanlı hər kəsin, hər bir oxucunun istəyi müqabilində ona çatacaq payı verməyə qadir olan sənətkar kimi sevilir.

Vidadi Babanlı "Vicdan susanda" əsərində həqiqəti üzə çıxarmaq üçün köhnəliklə yeniliyi, təmiz əxlaq, saf vicdan sahibləri ilə vətənə, xalqa, cəmiyyətə təmmənalı xidmət edənləri üz-üzə qoymuşdur. Bununla da ədalət, həqiqət naminə əsərdə iki vicdanı, iki əqidəni, iki psixologiyanı toqquşdurmuşdur. Onun bu üsulu seçməsi təbiidir. Axı cəmiyyətdə əsl həqiqət toqquşma olmadan üzə çıxa bilməz. Qarşılaşma, toqquşma həqiqəti açıb göstərir. Necə ki, Vidadi Babanlı qarşılaşdırma, toqquşdurma yolunu seçir və bir yazıçı kimi istəyinə nail olur. O, qütblərin birində professor Söhrab Günəşlini və onun aspirantı Vüqar Şəmsizadəni verir. Professor Söhrab Günəşli və onun istedadlı aspirantı Vüqar Şəmsizadə elmi nailiyyətlərini sübuta yetirmək istəyirlər və yeni avtomaşın yanacağı axtarışında əzmlə, inadla çalışırlar. Ancaq digər bir qütbdə Bəşir Bədirbəyli, Ziya Lələyev kimi kütbeynlər, istedadsız aspirant İsmət vardır. Kütbeyin Bəşir Bədirbəyli, Ziya Lələyev elm aləminə fırıldaq bir yolla gəlmiş, eyni zamanda vicdanları susmuş, xudbin adamlardır. Odur ki, belələri vicdanlı, ləyaqətli, təmiz əxlaqlı, saf əqidə sahiblərinə əngəllər törədir edirlər. Bütün dövrlərdə hər iki əqidədən olan insanlar olub və olacaqdır. Bu, xeyirlə şərin mübarizəsinə bənzəyir. Ədəbiyyatın ən böyük missiyasından biri də odur ki, o xeyrin tərəfində dayansın və həmişə ona yol açsın. Bu mənada, Vidadi Babanlı yazıçı cəfakeşliyi ilə ürəklərə yol tapmış, "Vicdan susanda" romanı ilə xalqını, millətini, gələcəyini sevən oxucuların qəlbində məşələ yandırmışdır. Bunun özünü bir müəllim əməyi və zəhməti hesab etmək lazımdır. Ona görə ki, cəmiyyətin eybəcərliklərini açıb göstərmək, əsl vətəndaş olmağın yollarını anlatmaq ciddi bir işdir. Əgər hansı müəllif bu işlə məşğul olursa, deməli, o, yazıçı-müəllim vəzifəsini yerinə yetirir.

Vidadi Babanlının "Vicdan susanda" romanında sevgi-məhəbbət və məişət məsələləri də çox canlı, maraqlı bədii detallarla, həm də yaddaqalan bədii detallarla tərənnüm olunur. Əlbəttə, bu da oxucuya çoxlu mənəvi keyfiyyətlər aşılayır. Bu cəhətdən də Vidadi Babanlı oxucunun qəlbinə belə bir yol tapır: o (yəni Vidadi Babanlı) insanların səadətinə, xoşbəxtliyinə çalışan və bunu yaradıcılığının ruhuna hopduran nasirdir. Vidadi Babanlı ədəbiyyata şeirlə gəlib, ancaq şeirlə demək istədiklərini deyə bilməyəndə nəsrə keçib. Amma onun şairlik istedadı yazdığı nəsr əsərlərinin ruhuna hopubdur. Bunu onun "Sizinçün üslub nədir?" sualına verdiyi cavab da təsdiq edir: "Mən deyə bilmərəm ki, üslubum nədir, necədir. Mənim üslubum haqqında oxucular, tənqidçilər və yazıçılar fikir yürüdə bilər. Ancaq onu deyə bilərəm ki, şeirlərimdə nəsr müşahidələri, nəsr əsərlərimdə isə şeirə xas poetiklik var".

Vidadi Babanlının əsərləri həmişə diqqət mərkəzində olub. Elə bu diqqətin nəticəsidir ki, haqsız təqiblərlə, təzyiqlərlə də qarşılaşıbdır. Ancaq əsərlərini mənəvi övladları hesab edən Vidadi Babanlı mənəvi övladlarına olan məhəbbətin sayəsində təqiblərdən, təzyiqlərdən qorxmamışdır. Müsahibələrinin birində dediyi kimi: "Mən "Vicdan susanda" əsərini uzun illərlə yazmışam. Həmin romana görə başıma çox müsibətlər gəlib. Bu əsərə görə məni kommunist partiyasından çıxarmaq istəyirdilər. Bu da ömürlük kitabımın bağlanması demək idi. Çünki partiya üzvü olmayanda səni işə götürmürdülər, çap olunmurdun, bütün siyahılardan adın çıxarılırdı və s. Bu əsəri AYB-nin iclasında müzakirəyə qoydular ki, roman antisovet əsəridir, Sovet adamının vicdanı nə üçün susmalıdır, bütün bunlar böhtandır. Süleyman Rüstəm, Əli Vəliyev, Osman Sarıvəlli, Rəsul Rza partiyadan çıxarılmağımın əleyhinə oldular, təklif etdilər ki, bu cavan oğlandır, onu partiyadan çıxartmaq gələcəyinin üstündən xətt çəkmək deməkdir, ona görə də şifahi töhmətlə kifayətlənmək lazımdır". Görün ki, cəmiyyətin sağlamlaşması, insanların mənəvi cəhətdən təmizlənməsi yolunda azad yazıçı kimi Vidadi Babanlı kimləri silkələmişdir ki, onlar narahat olmuş və onu gözüm-çıxdıya salmışlar. Belə bir hal hər yazıçının, şairin tərcümeyi-halında olmur. Daha çox böyük əksəriyyətin, cəmiyyətin narahat olduğu problemlərin həlli istiqamətində özünü çəkinmədən, qorxmadan fəda etmək istəyənlərin taleyində baş verir. Məhz Vidadi Babanlı da belə tale sahiblərindən olmuşdur. O, fikrini davam etdirərək deyir: "Mən də hirsləndim partiya biletini cibimdən çıxarıb stola çırpdım, bilet Mirzə İbrahimovun qarşısında yerə düşdü. Qapını çırpıb getdim. Həmin gecə Brejnevə məktub yazdım ki, bu ölkədə yaşamağıma imkan yoxdur, mənə başqa ölkəyə getməyə şərait yaradın. Səhəri gün məni işdən çıxardılar, 4 il işsiz qaldım, çox çətinliklər çəkdim". Deməli, əqidə, məslək yolunda bütün çətinliklərə sinə gərmək, bütün əzablara qatlaşmaq o qədər də asan deyildir. Məhz bunu bacaran ədiblər sonralar bu əzabəziyyətin, yəni cəfanın oxucu münasibətində səfasını da görürlər. Vidadi Babanlı kimi...

Vidadi Babanlı indiyə qədər bir an da olsun qələmini yerə qoymayan yazıçılarımızdandır. O, hadisələrə biganə qalmayan sənətkardır. Bu mənada, onun "Ana intiqamı" əsəri bədii dəyəri, qayəsi ilə fərqlənir. Belə ki, övladı ölmüş ana oğlunun paltarını geyinib vuruşmağa gedir. O, müharibə vaxtı gənc bir erməni əsgəri ilə qarşılaşır. Silahı həmin gənc erməniyə tuşlamaq istəyəndə analıq hissi bütün hissləri üstələyir. Həmin gənc ermənini qovur və deyir ki, niyə döyüşə gəlmisən, get ananın yanına. Gənc erməni dığası ağacın arxasında gizlənir və ana geriyə dönüb gedəndə onu güllələyir. Bununla da Vidadi Babanlı erməni xəyanətinin mahiyyətini bədii şəkildə təqdim edir.

Vidadi Babanlının həyat eşqi güclüdür. Onun qəlbi yazmaq, yaratmaq həvəsi ilə döyünür. İncə duyğular həmişə onunladır. Bu gün də Vidadi Babanlı incə duyğularla nəfəs alır. O yazır:

***İnsaf elə, mürvət elə, ey pəri!***
***Pozma əhdi bir nəhs sözdən ötəri.***
***Tufan kimi viran qoyub hər yeri,***
***Sən əssən də, mən duraram, əsmərəm,***
***Sən keçsən də, mən heç səndən keçmərəm.***

Yaxud:

***Bir daş ürəkliyə mən könül açdım,***
***Qarşımda lal kimi durdu, dinmədi.***
***Məndən uzaq gəzmə, sevirəm, - dedim,***
***Boynunu ehmalca burdu, dinmədi.***

Başqa bir misal:

***Babanlı asidir tale yazana,***
***Gəlib yazıq canı, vallah, cəzana***
***Əzablı günləri qoyma uzana***
***Öldürürsən öldür, a zalım qızı!***

Vidadi Babanlının bu şeirləri son dövrlərdə yazdığı şeirlərdir. Bunları oxuyan hər kəs onun ruhunun cavanlığını, ürəyinin hərarətini, həyat eşqinin gücünü görməyə bilmir.

Vidadi Babanlının həyatı və yaradıcılıq yolu fərqli bir üslubdur. Fərqli olmaq, başqalarına bənzəməmək özü olmaq deməkdir. Vidadi Babanlıya yazıçımıza cansağlığı arzusuyla hələlik deyirəm.